# İmadəddin Nəsimidən təsdis

*Şər qarışsa, bilmək olmur kimliyin dost-düşmənin,*
*Hər tərəfdən qurşayıb işğaldakı bağ gülşənin,*
*Qarğalar bir bülbülə çox gördülər öz məskənin.*
*Tale meydan mərdinin əydikcə məğrur gərdənin,*
*"Soyun, ey murdar sallaqlar Nəsiminin tənin,*
*Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz!"*

*Könlümün ərşindəki səyyarələr bir-bir itir,*
*Yurd yolunda ər şəhidlik mərdlərin qismətidir.*
*Bir başa bir xoş ölüm hürriyyətin ibrətidir,*
*Təkləmək hər aslanı sırtlanların xislətidir.*
*Dəstəmaz alıb qanından, əl yuyarlar, ağrımaz,*
*"Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz!"*

*Birləşib bir soyğunun üstündə bərk-bərk durdular,*
*Bir oğurluq nüsxəyə hər cür tərif uydurdular.*
*"Dar ağacı"n titrədən alpa yeni "dar" qurdular,*
*"Yüz-yüz" ilə hallanan dostlarına vurdurdular.*
*Nuş edib şair qanın bir-bir doyarlar, ağrımaz,*
*"Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz!"*



*Soydular bir Tanrıdağ elçisinin*
*dürdanəsin,*
*Səltənətlər taxtına od püskürən*
*əfsanəsin.*
*Cümlə məzlum ellərə qalxan olan*
*mərdanəsin,*
*Bir sümük, bir dəridən qeyri nə*
*var, hər danəsin.*
*İndi də can riştəsin xürrəm*
*soyarlar, ağrımaz,*
*"Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz!"*

*Amma möhrün gerçəyə çoxdan vurub salnamələr,*
*Çox da ki qəlp pullara aldanmada əllamələr,*
*Çox da ki məst başlara züy tutmada əmmamələr,*
*Akifa, "uff" eyləmə, düşməz sənə ah-nalələr!*
*Haqqı biryolluq danıb, bağrın oyarlar, ağrımaz,*
*"Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz!"*

**Akif Azalp**